İnformasiya təhlükəsizliyi dövlət siyasətinin mühüm tərkib hissəsidir

Dünyada təhdidlər artır və təhlükəsizlik məsələləri dövlətlər üçün prioritet sahəyə çevrilir.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bu gün heç bir cəmiyyəti informasiyasız təsəvvür etmək mümkün deyil. Dünya bir növ informasiya mübadiləsi, informasiya müharibəsi və informativ təsir havası ilə nəfəs alır. Lokal şəbəkələr qloballaşaraq birləşir. Bunsuz olan mühit kar və kor sayılar, necə deyərlər, əlimyandıda qalmış olar.

Təəssüf ki, cəmiyyətin tərəqqisinə xidmət edən informasiya sahəsi də, bəzi kataklizmlərdən xali deyil. Çünki minimal təhlükəsizlik tələblərinə cavab verməyən proqram vasitələri də dünyada geniş yayılır fəaliyyəti iflic edən, müvafiq infrastrukturun sahibi və istifadəçilərinə ziyan vuran müxtəlif xarakterli təsirlər üçün bir növ açıq pəncərə olur. Dünya liderliyi, hegemonluq uğrunda mübarizə başqalarının əl-qolunu bağlamaq cəhdlərini informasiya kommunikasiyası sisteminə də nüfuz edir. Ziyana düşməməyin yolu isə informasiya təhlükəsizliyinə nail olunmasıdır. Bu elə bir kompleksdir ki, davamlı şəkildə inkişaf edib yayılan informasiya texnologiyalarını kiberhücumlardan lazımınca mühafizə edə bilir.

Azərbaycan müstəqillik qazandıqdan sonra informasiya sahəsinin də milli təhlükəsizliyin əsas problemlərindən biri kimi qorunması zərurəti yaranıb. 1998-ci il aprelin 3-də ulu öndər Heydər Əliyev "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanun imzalayıb. 2012-ci il sentyabrın 26-da Prezident İlham Əliyev "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Fərman imzaladıqdan sonra milli informasiya təhlükəsizliyi üzrə strategiyanın yeni mərhələsi başlanıb. Ondan sonra da bu sahədə mühüm addımlar atılıb.

Həyat davam edir və zamanın yeni çağırışları hər bir sahəyə cari və perspektiv baxış bucağından yanaşmağı tələb edir. Odur ki, Azərbaycanda informasiya texnologiyaları əsasında dövlət əhəmiyyətli məsələlərin həlli naminə müvafiq, modern informasiya infrastrukturu yaradılır. Həmin infrastruktur qlobal informasiya, o cümlədən, internet şəbəkəsində yer aldıqca kiberhücumların da hədəfinə çevrilir. Dövlətin, cəmiyyətin və vətəndaşların maraqları baxımından vacib hesab edilən məsələlərin həlli məqsədilə yaradılan kritik informasiya infrastrukturunun sistem və şəbəkələri sıradan çıxarılır və ya onların funksionallığı pozulur ki, bu da ciddi zərərsiz başa gəlmir. Bu səbəbdən kritik informasiya infrastrukturunun kibertəhlükəsizliyi prioritet məsələyə çevrilir.

Prezident İlham Əliyevin bu il aprelin 17-də imzaladığı "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" Fərman məhz ölkəmizdə həmin infrastrukturun tərkibinə daxil olan sistemlərin, informasiya-kommunikasiya şəbəkələrinin və avtomatlaşdırılmış idarəetmənin təhlükəsizliyinin gücləndirilməsi məqsədinə xidmət edir. Fərmanda təhlükəsizliyin təmin edilməsi, o cümlədən, kibertəhdidlərə qarşı mübarizə sahəsində səlahiyyətli orqan funksiyalarının verildiyi DTX ilə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin qarşısına konkret vəzifələr qoyulub. Nazirlər Kabineti həmin təhlükəsizliyin təminatının hüquqi tənzimlənməsi məqsədilə müvafiq normativ aktların layihələrini üç ay müddətində hazırlayıb ölkə rəhbərinə təqdim etməli və Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

İnformasiya təhlükəsi dedikdə sistemə dağılma, konfidensiallığın pozulması – sirrin üstünün açılması, xidmətdən imtina formasında ziyan vurulmasına səbəb ola bilən müdaxilələr nəzərdə tutulur. Meydana çıxma səbəblərinə görə təhlükələr təbii və süni xarakterli olur. Bu, qəsdən də edilə bilir, bilməməzlikdən də baş verir.

İnformasiya təhlükəsizliyinin aspektləri əlyetənlik, tamlıq və məxfilikdir. Bizim bir çox informasiya şəbəkəsi sahibləri məlum təhdidlərdən başqa, DoS-hücum, Botnet və Fişinq kimi təhdidlərin də olduğundan xəbərsizdirlər. Halbuki hələ neçə on il öncə ABŞ Müdafiə Nazirliyi bu haqda "Etibarlı kompüter sistemlərinin qiymətləndirilməsi meyarları" adlı standartları nəşr edib. Təhlükəsizliyə barmaqarası münasibət bəzi hallarda dövlət sirrinin faş edilməsi, düşmən tərəfin bundan öz məqsədləri üçün yararlanması, milli maraqların pozulması ilə nəticələnir. Bəzi telekanallar, informasiya saytları, portallar, təəssüf ki, buna lazımi önəm verə bilmirlər. Unutmamalıyıq ki, informasiya təhlükəsizliyi zəruri ehtiyat tədbiridir, ölkənin, xalqın və nəhayət, hər bir vətəndaşın riayət etməli olduğu yaşam tərzi, sabitliyin qarantıdır. Durmadan informasiyalaşan cəmiyyətdə insanlar bundan daha artıq dərəcədə asılı vəziyyətə düşürlər. İnformasiya təhlükəsizliyinin təmin olunmaması böyük fəsadlar törədə bilər.

Bu sahədə çalışan hər kəsin, xüsusilə də cavabdeh şəxslərin borcudur ki, informasiya təhlükəsizliyinin prioritetlərini bilsin. Bu prioritetlər dövlətin, cəmiyyətin və vətəndaşların maraqlarının balanslı nisbəti əsasında müəyyənləşir. Ölkədəki siyasi, hərbi, fövqəladə və s. vəziyyətlərdən asılı olaraq bu nisbət dəyişə bilər. Hər bir halda sayıqlıq vacibdir.

Münaqişələr zamanı, döyüşlərin hər bir mərhələsində ifrat vətənpərvərlik hissinin təsiri ilə bir sıra televiziya və xəbər portallarında bilməyərəkdən hərbi sirlərin yayılmasına yol verildiyi məlum olmuşdur. Azərbaycan İnternet Formunun rəhbəri Osman Gündüz bir neçə ay öncə mətbuata açıqlamasında 2020-ci il Vətən müharibəsi zamanı dövlət və qeyri-dövlət sektorunda informasiya təhlükəsizliyi, o cümlədən, kibertəhlükəsizlik sahəsində, dövlət resurslarının dayanıqlığında və koordinasiya məsələlərində müəyyən problemlərin müşahidə edildiyini bildirib və buna görə də tezliklə məxsusi Milli Strategiya hazırlanmalı olduğunu xatırladıb.

Yadımıza düşür ki, hələ Birinci Qarabağ müharibəsi dövründə Qarabağın bu və ya digər yaşayış məntəqəsindən təqdim edilən bəzi reportajların müəllifləri və ya onlara müsahibə verən könüllü müdafiəçilər "Burada erməni hücumlarının qarşısı iki-üç ov tüfənginin hesabına alınır" kimi fikirlər səsləndirib sanki, bununla öyünürdülər. Nəticədə isə özləri də bilmədən mövcud silah arsenalı haqqında düşmənə "əla" məlumat sızdırmış olurdular. Çox keçmədən xəbər yayılırdı ki, işğalçılar hücum edərək həmin məntəqəni ələ keçiriblər. Bu kimi faktlar istənilən qədərdir.

Vətəndaşlarda informasiya mədəniyyətinin tərkib hissəsi olan informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması böyük aktuallıq kəsb edir. Bu mənada milli, iqtisadi, hərbi siyasətin əsas məqsədi sabitliyin təmin olunması üçün etibarlı təhlükəsizlik mühitinin yaradılmasıdır. Nəzərə almaq lazımdır ki, informasiya texnologiyalarının köməyi ilə bir çox hərbi və digər sahələrdə münaqişələr yaratma taktikası dəyişir. İnformasiya və dezinformasiyanın kimin nəzarətində olması mühüm rol oynayır. Bəzən dezinformasiya təhlükəli bir silaha da çevrilir. Mövcud "İnformasiya təhlükəsizliyi", "İnformasiya müharibəsi" terminləri hərbi sahədə daha çox istifadə edilsə də, digər uyğun sahələrdə də ön sırada qərarlaşmışdır.

Hərbi-siyasi sahədə informasiya müharibəsinin silahlı döyüş qədər böyük önəm daşıması şübhəsizdir. Ötən ilin payızındakı 44 günlük zəfər yürüşü zamanı Azərbaycan həm də bu sahədə sürəkli hücumları dəf etməli olmuşdu. Milli mətbuatımız sırf peşəkarlıq baxımından bu vəzifələrin öhdəsindən gələ bilmək gücündə deyildi. Burada həmkarım İlqar Rüstəmovun fikirlərini misal çəkmək yerinə düşər: "Xalqımızın, dövlətimizin bu haqlı davasında bütün mümkün informasiya, media resursları ilə üstümüzə yeriyən Qərbin ermənipərəst politoloqları, jurnalistləri, ekspertləri qarşısında Azərbaycan mətbuatı aciz görünürdü. Tanrıya şükürlər olsun ki, bu işdə də dərin zəkasını, soyuq məntiqini, strateji düşüncəsini, hazırcavablığını, diplomatik-siyasi erudisiyasını ortaya qoyan Azərbaycan Prezidenti İlham Əliyev yorulmaz səylər göstərdi. Döyüş meydanında Ali Baş Komandanın çevik, düşünülmüş planlarını əzmlə, cəsarətlə və dəqiq yerinə yetirən zabit-general korpusu, mətin, qorxmaz əsgərləri var idi. Amma Azərbaycana qarşı informasiya müharibəsində aramsız atəşləri, etiraf edək ki, Prezident İlham Əliyev təkbaşına dəf etdi və bu savaşdan da qalib çıxdı. Beynəlxalq müstəvidə feyk xəbərlərin xaç yürüşünə, siyasi təzyiqlərə tutarlı əks-hücumla, məhz İlham Əliyev cavab verə bildi".

Göründüyü kimi, hərbi münaqişələrin həllində informasiya müharibələrinin nəticələri də böyük önəm daşıyır. Elektron media vasitələri, xəbər portalları Qərb dövlətlərində, xüsusilə də Ermənistanın havadarı olan ölkələrdə Azərbaycan həqiqətlərini yaymağa xidmət edən informasiyalar, təhlili materiallar yaymalı, ölkəmizə qarşı hərzə-hədyan yürüşünə çıxan media vasitələri ilə informasiya müharibəsi aparmağa nail olmalı, obyektiv, vicdanlı xarici politoloq, jurnalist və ekspertləri bu işə daha geniş cəlb etməlidirlər. Ölkə daxilində bir neçə beynəlxalq dildə xəbər, siyasi analitik məqalələr yayan, Azərbaycanı şərləyən qüvvələrə tutarlı, ciddi arqumentlərə söykənən cavablar verə biləcək güclü media qurumları formalaşmalıdır.

Bu gün bəzi xəbər saytları, sosial şəbəkə istifadəçiləri qanuni xəbərdarlıqları qulaqardına vurur, ucuz sensasiya xatirinə "özfəaliyyətə" rəvac verir, şayiə xarakterli, "çiy" faktları dövriyyəyə buraxırlar. Əslində isə, ölkə üçün informasiya təhlükəsizliyi, dövlət sirri olan hərbi məlumatların yayılmaması birmənalı olaraq danılmaz vacib məsələlərdir və milli təhlükəsizliyə nail olmağı hədəfləməlidir. Odur ki, bu tip xəbərlər yalnız rəsmi dövlət orqanlarının məlumatlarına əsaslanmalıdır. Elə vətəndaş cəmiyyəti də gərək bu tələbə son dərəcə ciddi yanaşın. Mətbuat azadlığını bəsit formada anlamaq olmaz. Əvvəllər bu sahədə bəzi boşluqlar var idi. İndi isə dövlət və qeyri-dövlət sektorlarında informasiya təhlükəsizliyinin təmin olunması üçün hüquqi-normativ aktlar daha təkmil forma almışdır. Həm kiber hücumların qarşısının alınması ilə bağlı Cinayət Məcəlləsinin maddələri təkmilləşdirilib, həm də dövlət sirlərinin qorunması ilə bağlı qanunlara mühüm dəyişikliklər edilib.

Həmkarlarımız bu məsuliyyət hissini yaddan çıxarmamalıdırlar. Axı, məhz onlar təsirli söz sahibləri və aparıcı təbliğatçılardır. Odur ki, sırf qanunlar çərçivəsində fəaaliyyət göstərməli, vacib xəbərləri cəmiyyətə ötürərkən dövləti və milli maraqları üstün tutmalıdırlar. Özbaşınalıq, demək olar ki, heç zaman özünü doğrultmur, gərəksiz başağrıları yaradır. Elə etmək lazımdır ki, necə deyərlər, qaş düzəldən yerdə gözə xətər dəyməsin.

Bu sahədə fəaliyyətin günün tələbləri səviyyəsində, qüsursuz həyata keçirilməsi baxımından Prezident İlham Əliyevin bu il yanvarın 12-də imzaladığı "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmana əsasən yaradılmış Medianın İnkişafı Agentliyinin (MEDİA) üzərinə xüsusilə böyük vəzifələr düşür. Yeni qurum fəaliyyətinin əsas istiqamətləri ilə yanaşı, vaxtaşırı olaraq sahəvi jurnalistika təlimləri, redaktorlar, informasiya yayıcıları üçün bu mövzuda seminarlar, maarifləndirici kurslar təşkil edilməsinə də diqqət yetirilməlidir.

Bir vacib məsələ də müvafiq nazirliklərin mətbuat xidmətlərinin kütləvi informasiya vasitələri ilə əlaqələrə daha mühüm önəm verməsidir. Bu əməkdaşlıq və şəffaf mühit informasiya yaymaq sahəsində yanlışlıqlara yol verilməsinin qarşısını xeyli dərəcədə alar. Nazirliklər ünsiyyətdə olduqları auditoriyalarla, dövlət qurumlarıyla, QHT-lərlə, vətəndaş cəmiyyəti ilə, icmalarla və ictimaiyyətlə əlaqələri genişləndirməli, müraciətlərə daim açıq olmalı və beləliklə xəbər qıtlığı çəkən şəbəkələr tərəfindən qeyri-dəqiq məlumatların informasiya məkanına yayılmasına yol verməməlidirlər. Həm də mətbuat xidmətləri operativliklərini artırmalı, materialların bacardıqca tez, jurnalistlərin dili ilə desək, isti-isti ənənəvi mediaya, elektron və onlayn mətbuata, teleradio kanallarına çatmasını təmin etməlidirlər.

Reklam bazarı aşıb-daşan, şit şou proqramları ilə gözləri və qulaqları yağır edən bəzi televiziyalar, qondarma "media kapitanları"nın qəzetləri, xırda məişət mövzusundan, dedi-qodudan kənara çıxa bilməyən saytlar nəyi təbliğ etdiklərini özləri də əməlli-başlı bilmirlər. Birinin təsadüfən ciddi bir mövzuda yazdığı səhvlərlə dolu, dövlət və hərbi sirləri aləmə faş edən iinformasiyalar isə dərhal digərləri tərəfindən köçürülərək daha geniş auditoriyada yayılır və cəmiyyət arasında çaşqınlıq, dedi-qodu yaradır. Belə hallara qarşı ciddi mübarizə aparılmalıdır. Çünki düşmənlərimiz bizim ənənəvi və elektron mətbuatımızı, informasiya resurslarımızı hər gün izləyərək, içindən "nəsə" tapır və dövlətimizə, millətimizə qarşı yönələn xəbər mənbəyi kimi istifadə edirlər. Bizsə bundan sonra bədxahlarımızın yaydığı bədnamlıqları təkzib etmək, əsl həqiqəti oxuculara çatdırmaq üçün günlərlə çalışmalı oluruq.

Unutmaq olmaz ki, media informasiyanın toplanması, emalı və yayılması üzrə məsuliyyət daşıyan əsas sosial institutdur. Buna görə də dövlət siyasətinin tərkib hissələrindən biri, məhz informasiya təhlükəsizliyi və informasiyanın müdafiəsidir.

Əli NƏCƏFXANLI,
"Xalq qəzeti"